# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Türkiyənin kütləvi informasiya vasitələri müzəffər Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları barədə məlumatları geniş şəkildə yaymaqda davam edir. AZƏRTAC xəbər verir ki, oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirməsi və dövlətimizin başçısının Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad olunması barədə özünün rəsmi "Twitter" səhifəsində paylaşım etməsi Türkiyə KİV-i tərəfindən sürətlə yayılıb.

Müzəffər Azərbaycan ordusunun şərəfli tarix yazdığını ifadə edən media cəbhə bölgəsindən gələn şad xəbərləri böyük sevinclə Türkiyə ictimaiyyətinə çatdırır.

❖❖❖



Azərbaycanın Dağlıq Qarabağ bölgəsində şiddətli müharibə davam edir.

AZƏRTAC xəbər verir ki, İsrailin populyar "YNET" saytında dərc edilmiş "Gəncənin yəhudi icması Ermənistan tərəfindən bombardmana məruz qalıb və müharibəyə qoşulub" sərlövhəli məqalə bu mövzuya həsr edilib.

Qeyd etmək lazımdır ki, "YNET" dünyada ən yaxşı 1500 saytın və İsraildə ən yaxşı 10 saytın sırasına daxildir. "Google Trends" axtarış sisteminin rəyinə görə "YNET" İsrailin ən populyar internet portalıdır.

Məqalənin müəllifi İtamar Eyhner qeyd edir ki, Azərbaycanın Gəncə şəhərindəki yəhudi icması Ermənistan ordusu tərəfindən ballistik raketlərlə güclü hücumlar nəticəsində ciddi ziyan çəkib.

Ermənistan tərəfindən buraxılmış raket icma üzvlərindən birinin evindən təqribən 300 metr məsafədə düşüb, xoşbəxtlikdən zərərçəkən olmayıb. Habadanın yerli emissarı ravvin Şneor Seqal deyir: "Təəssüf ki, bombardman nəticəsində Gəncədəki yəhudi ailələrinin çoxunun evləri zədələnib. Böyük möcüzədir ki, xəsarət alan olmayıb".

Son günlərdə təcavüzkar Ermənistandan Gəncəyə çoxlu bomba atılıb. Ermənistan ordusunun raket hücumları nəticəsində 20-dən çox dinc sakin həlak olub, 130-dan çox adam, o cümlədən uşaqlar yaralanıb. Bu şəhərdə Azərbaycanın yəhudi diasporunun təqribən 800-1000 nümayəndəsi yaşayır.

Ş.Seqal deyir: "Mən Şabbatdan dərhal sonra Gəncəyə gəldim, icma üzvləri ilə söhbətlər apardım. Raket hücumundan zərər çəkmiş rayonlara baxdıq. Dəhşətli mənzərə idi - Ermənistanın hücumu nəticəsində onlarca ev dağıdılıb".

Məqalədə qeyd edilir ki, Gəncə şəhəri Xankəndidən təqribən 100 kilometr şimalda yerləşir.

"Azərbaycan müsəlman ölkəsidir, lakin siz burada özünüzü tam rahat hiss edirsiniz", - deyən Seqal vurğulayır ki, yəhudi icmasının üzvləri də Ermənistan tərəfindən atəşə məruz qalmalarına baxmayaraq, döyüş əzmindədirlər.

❖❖❖



Çinin kütləvi informasiya vasitələri Ermənistanın təxribatları və Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı barədə materialların təqdimatını davam etdirir.

AZƏRTAC xəbər verir ki, Çin Mərkəzi Televiziyasının (CCTV) mövzuya dair reportajında Azərbaycanın Müdafiə Nazirliyinin düşmən hədəflərinin məhv edilməsinə dair görüntüləri yayımlanıb.

CCTV-nin ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsindəki məqalədə yenə Azərbaycanın Müdafiə Nazirliyinə istinadla Qubadlı və Laçın rayonunun Ermənistan ərazisindən atəşə tutulduğu qeyd olunub. Bildirilib ki, Ermənistanın oktyabrın 17-də Gəncə şəhərinə raket hücumu nəticəsində yaralanmış Rusiya vətəndaşı olan 13 yaşlı oğlan vəfat edib. Ümumilikdə sentyabrın 27-dən bəri Azərbaycan tərəfdən 65 mülki vətəndaş ölüb, 300-ə yaxın sakin isə yaralanıb.

Məqalədə Azərbaycan Ordusunun bəzi əraziləri geri alması, habelə İran ilə dövlət sərhədinin tam nəzarətə götürülməsi, ABŞ rəsmilərinin Vaşinqtonda Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri ilə münaqişənin həllinə dair danışıqlar keçirməsi barədə məlumat verilib. Bundan başqa, Ermənistanın baş naziri Nikol Paşinyanın münaqişənin diplomatik yolla həllinin qeyri-mümkünlüyü barədə fikirləri də əksini tapıb.

Sinxua agentliyinin, "Jenmin Jibao" və "China Daily" qəzetlərinin xəbərlərində də Vaşinqtondakı görüşlərdən söz açılıb.

Çinin digər xəbər portallarındakı mövzuya dair xəbərlərdə Azərbaycan Ordusunun düşmənin canlı qüvvəsini, döyüş texnikasını, o cümlədən S-300 tipli zenit-raket komplekslərini məhv etdiyi qeyd olunub. Azərbaycan Ordusunun döyüş əməliyyatlarında pilotsuz uçuş aparatlarını tətbiq etməsi Çin KİV-inin də diqqətini cəlb edib. Mövzuya dair xəbərlərdə qeyd olunur ki, Azərbaycan Ordusu PUA-lar və artilleriya vasitəsilə düşmənə ağır zərbələr endirib və müharibənin ritmini ələ alıb.

❖❖❖




Türkiyənin "A Haber" telekanalı "Ermənilərin törətdikləri qətliamlar" sərlövhəsi ilə xüsusi veriliş yayımlayıb.

AZƏRTAC xəbər verir ki, oktyabrın 24-də axşam efirə gedən verilişdə erməni terrorizminin yaranması, keçdiyi yol və günümüzdəki fəaliyyəti faktlar əsasında təqdim olunub.

Veriliş Ermənistanın Azərbaycana işğalçılıq siyasəti və sentyabrın 27-də daha da intensivləşən hücumları ilə yaranmış hərbi gərginliyə dair faktların real kadrlar əsasında təqdim olunması ilə başlayıb. Prezident İlham Əliyevin fikirləri diqqətə çatdırılaraq bildirilib ki, döyüş bölgəsində məğlubiyyətə düçar olan Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycanda dinc əhalinin atəşə tutulması barədə əmr verib. Gəncəyə ballistik raketlərin atılması bu göstərişlərin tərkib hissəsidir.

Sonra Xocalı soyqırımı, eləcə də ötən əsrin əvvəllərində erməni silahlı quldur dəstələrinin Anadolunun şərqində günahsız müsəlman-türk əhaliyə qarşı həyata keçirdikləri soyqırımlarından, türk diplomatlarına qarşı terrorlardan bəhs olunub, real faktlarla erməni vəhşiliyindən söz açılıb. Həmçinin Prezident Rəcəb Tayyib Ərdoğanın saxta "erməni soyqırımı" mövzusunun Türkiyəyə qarşı məqsədli siyasi təzyiq vasitəsi olduğunu əsaslandıran çıxışları təqdim olunub.

Verilişboyu təqdim olunan faktlar və kadrlar əsasında bir daha dünya ictimaiyyətinə çatdırılıb ki, əsl soyqırımının kim tərəfindən törədildiyini bilmək istəyən varsa, Xocalıya və bir neçə gün əvvəl Gəncədə ballistik raket zərbəsi ilə dinc azərbaycanlıların kütləvi qətlə yetirilməsi faktına baxsınlar. Müasir dövrdə bu cinayətləri terrorçu və işğalçı Ermənistan dövləti həyata keçirir.

❖❖❖




Latviyanın "press.lv" xəbər portalında Azərbaycanın bu ölkədəki səfiri Cavanşir Axundovun "Biz öz torpaqlarımızı geri qaytaracağıq" sərlövhəli müsahibəsi dərc olunub. AZƏRTAC xəbər verir ki, səfir müsahibəsində Qarabağın Azərbaycanın tarixi torpağı olması, Dağlıq Qarabağ və ətraf rayonların 30 ilə yaxın müddətdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması, münaqişənin sülh yolu ilə həlli istiqamətində görülmüş işlər, Ermənistan tərəfinin atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum tədbirləri həyata keçirməsi haqqında danışıb.

Diplomat Ermənistan tərəfinin münaqişə və hərbi əməliyyatlar ilə bağlı yaydığı saxta məlumatların ifşa olunmasının zəruriliyi, rəsmi İrəvan tərəfindən beynəlxalq humanitar hüququn dəfələrlə kobud şəkildə pozularaq Dağlıq Qarabağ regionundan kənarda yerləşən şəhər və rayonlarımızı, dinc əhalini hədəfə alması, eləcə də Azərbaycan tərəfinin haqlı mövqeyi barədə məlumat verib.

❖❖❖




Gürcüstanın nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin Fransanın "Figaro" və Yaponiyanın "Nikkei" qəzetlərinə müsahibəsində qonşu Gürcüstan və Qarabağın gələcək taleyi barədə fikirlərinə geniş yer verib. AZƏRTAC xəbər verir ki, nüfuzlu report.ge, aktual.ge, newsgeorgia.ge, pia.ge, 24news.ge, interpressnews.ge informasiya portallarında Azərbaycan Prezidentinə istinadla yayılan xəbərlər oxuculara Azərbaycan, gürcü, rus və ingilis dillərində çatdırılır.

Ən böyük diqqətçəkən material Azərbaycan Prezidentinin Qarabağın taleyi ilə bağlı fikirləridir: "Biz Qarabağı insanların ləyaqət və sülh içində, azərbaycanlı və erməni icmalarının yanaşı yaşadığı Azərbaycanın çiçəklənən, təhlükəsiz ərazisi kimi, bizim Azərbaycanın bütün digər yerlərində etdiyimiz kimi inkişaf etdirməyi planlaşdırdığımız ərazi kimi görürük. Bizim çox əhəmiyyətli iqtisadi nailiyyətlərimiz var. Bizdə yoxsulluq səviyyəsi çox aşağıdır, təxminən 5 faizdir. Ermənistanda bu, 50 faizə yaxındır. Həmçinin bizdə işsizlik səviyyəsi çox aşağıdır. Pandemiyadan əvvəl bu, 5 faizə yaxın idi, indi 7 faizdir. Lakin bu amilin geniş vüsət aldığı Dağlıq Qarabağla müqayisədə fərq gecə ilə gündüz qədərdir. Beləliklə, biz orada yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar üçün daha yaxşı həyat təmin edə bilərik".

Gürcü oxucularının diqqətini çəkən digər məsələ isə Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan münasibətlərinin yüksək səviyyədə olması və bu ölkədəki soydaşlarımızla bağlı fikirləridir.

❖❖❖




Ərəb ölkələrinin nüfuzlu KİV-i Azərbaycanın haqq işi - öz torpaqlarını işğaldan azad etməsi barədə materiallar yaymaqda davam edir. AZƏRTAC xəbər verir ki, geniş oxucu auditoriyasına malik "Arabnews" qəzetində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin "Ermənistanın son hərbi təxribatı" sərlövhəli məqaləsi dərc olunub. Yazıda Ermənistanın etnik təmizləmə siyasəti, Azərbaycanın işğal edilmiş ərazilərində məscidləri dağıtması və təhqir etməsi, döyüşlərdə Yaxın Şərq ölkələrindən gətirilmiş muzdlu əsgərlərdən istifadə etməsi, humanitar atəşkəs razılaşmalarını kobud şəkildə pozaraq Gəncə, Mingəçevir, Tərtər şəhərlərinə və digər yaşayış məntəqələrinə raket hücumu etməsi, dinc insanları qətlə yetirməsi barədə ətraflı məlumat verilir. Vurğulanır ki, İslam Əməkdaşlıq Təşkilatı işğalçı ölkənin bu əməllərini pisləyən və Azərbaycana dəstək ifadə edən bəyanatlar yayıb.

Azərbaycanın ədalətli mövqeyindən bəhs edən daha bir məqalə Misirin "Almasryalyoum" qəzetində dərc olunub. Müəllif qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev son müsahibələrində guya Dağlıq Qarabağda muzdlu əsgərlərin olması barədə xəbərləri qətiyyətlə təkzib edib və qüdrətli Azərbaycan Ordusunun heç kimin yardımına ehtiyacının olmadığını vurğulayıb. Məqalədə, həmçinin ordumuzun Zəngilan, Füzuli, Cəbrayıl rayonlarını azad etməsi, döyüş meydanında məğlub olan işğalçı Ermənistanın mülki obyektləri və yaşayış məntəqələrini hədəf almasından danışılır.

❖❖❖




Özbəkistanın "kun.uz", "qalampir.uz" və "azon.uz" portalları Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə bağlı özbək və rus dillərində məqalələr dərc edib.

Məqalələrdə Azərbaycan ordusunun günbəgün irəliləməsindən və torpaqları işğaldan azad etməsindən danışılır. Bununla yanaşı, Dağlıq Qarabağın və münaqişənin tarixi haqqında da məlumat verilir.

❖❖❖




Norveç qəzetində Gəncənin raket atəşinə tutulması nəticəsində həlak olan insanlardan bəhs edilən yazı dərc olunub. AZƏRTAC xəbər verir ki, "Utrop" qəzetində Azərbaycan şəhərlərinin və kəndlərinin ərazilərindəki mülki obyektlərə planlaşdırılmış hücum zamanı törədilmiş hərbi cinayətlərdən söhbət açılır.

Qeyd olunur ki, erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın dinc şəhərlərinə raket zərbələri endirilməsi müharibə dövründə mülki vətəndaşların müdafiəsi haqqında Cenevrə Konvensiyasının yolverilməz pozuntusudur. Gəncə ilə yanaşı, Mingəçevir şəhəri, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu, həmçinin paytaxt Bakı şəhərinin yerləşdiyi Abşeron yarımadası da raket zərbələrinə məruz qalır. Belə hücumlar insanlar arasında təşviş yaratmaq və münaqişəyə yeni ölkələri cəlb etməkdən ötrü məqsədyönlü şəkildə həyata keçirilir.

"Utrop" qəzetində xatırladılır ki, bugünədək Qarabağ regionundan olan azərbaycanlı məcburi köçkünlərin sayı 800 mindən çoxdur. Münaqişə nəticəsində öz ev-eşiklərini itirən azərbaycanlıların ümumi sayı isə milyonu ötür. Buraya həm də 1988-1989-cu illərdə Ermənistandan köçməyə məcbur olanlar da daxildir. Qəzet yazır: "Bu insanlar 26 ildən çoxdur ki, münaqişənin ədalətli həllini və öz doğma ocaqlarına qayıtmalarını gözləyirlər".

❖❖❖




Türkiyənin Anadolu agentliyi Azərbaycan Ordusunun cəbhədə yaratdığı dönüş vəziyyəti ilə bağlı mükəmməl infoqrafika hazırlayıb. AZƏRTAC xəbər verir ki, infoqrafikada işğalçı Ermənistanın hərbi təxribatları nəticəsində sentyabrın 27-dən cəbhədə yaranmış qarşıdurmanın oktyabrın 22-dək olan statistikası xəritə üstündə əksini tapıb. Oxucuya məlumat verilir ki, ötən dövrdə müzəffər Azərbaycan Ordusu 117 yaşayış məskənini düşmən tapdağından azad edib. Prezident İlham Əliyevin oktyabrın 22-də sosial şəbəkə hesabında açıqladığı 20 kənd və bir qəsəbənin azad olunması ilə Azərbaycan-İran dövlət sərhədinin tam şəkildə nəzarətə alınması barədə məlumat, həmçinin həmin yaşayış məskənlərinin adları infoqrafikada əksini tapıb.

❖❖❖




Meksika mətbuatında Ermənistanın Azərbaycana qarşı təcavüzü və törətdiyi müharibə cinayətləri haqqında məqalə dərc olunub.

Azərbaycan Respublikasının Meksikadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, bu ölkənin nüfuzlu ingilisdilli mətbu orqanı olan "Pulse News Mexico" qəzetində tanınmış jurnalist Teresa Marqolisin "Azərbaycan Ermənistanla niyə müharibədədir" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının 27 il ərzində Ermənistanın işğalı altında olduğu və Ermənistanın BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı qoşunların Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymayaraq bu əraziləri tərk etmədiyi qeyd olunur.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ ərazisini və ətraf 7 rayonu işğal etdiyi və bir milyona yaxın dinc əhalinin öz yurdlarından didərgin salındığı oxucuların diqqətinə çatdırılır, Azərbaycan ərazilərinin ermənilər tərəfindən vəhşicəsinə işğalının beynəlxalq ictimaiyyət tərəfindən "planlaşdırılmış etnik təmizləmə" kimi qəbul edildiyi vurğulanır.

Bildirilir ki, 1994-cü ildə iki ölkə arasında atəşkəs rejimi elan olunmasına və beynəlxalq təşkilatların vasitəçiliyi ilə münaqişənin həlli istiqamətində aparılan danışıqlara baxmayaraq, Ermənistan dəfələrlə təxribata əl ataraq atəşkəs rejimini pozub. Azərbaycan münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, eləcə də dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll olunmasına çalışır, lakin Ermənistan tərəfindən münaqişənin həlli istiqamətində heç bir addım atılmır.

Məqalədə Ermənistanın bu gün də Azərbaycan torpaqlarını işğal edərək istismar etdiyi, bir vaxtlar məhsuldar olan tarlaları yandırdığı, işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətlə məşğul olduğu, həmin torpaqlardan çıxan qızıl və digər təbii sərvətlərdən 30 il ərzində olduğu kimi istifadə etdiyi diqqətə çatdırılır.

Müəllif yazır ki, dünya birliyinin COVID-19-a qarşı mübarizə apardığı bir dövrdə Ermənistan növbəti təxribata əl ataraq iyul ayında atəşkəs rejimini yenidən pozaraq Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücum edib, ağır artilleriya qurğularından Azərbaycanın Tovuz rayonu istiqamətini atəşə tutub. Həmin dövrdən başlayaraq dəfələrlə Ermənistan tərəfinin təxribatları ilə cəbhədə gərginlik yaşanıb.

Məqalədə həmçinin Azərbaycan tərəfinin 30 il ərzində diplomatik yollarla həll edilə bilməyən münaqişəni işğal olunmuş torpaqlarını haqlı olaraq azad etməklə həlli qərarına gəldiyi vurğulanır və torpaqlarını düşmən işğalından tamamilə azad etməyənədək dayanmayacağı qeyd olunur. Həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini ballistik raketlərlə atəşə tutduğu oxucuların diqqətinə çatdırılır.

Son üç həftə ərzində Azərbaycan Ordusunun Füzuli, Cəbrayıl və Zəngilan rayonlarını, həmçinin İran İslam Respublikası ilə sərhəd əraziləri işğaldan azad etdiyi bildirilir və bu müharibədə Azərbaycanın qalib olduğu vurğulanır.

Müəllif bu müharibənin əsas səbəbinin Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi olduğunu və Azərbaycanın haqlı olaraq öz torpaqlarını işğaldan azad etməyə çalışdığını bir daha oxucuların diqqətinə çatdırır.

❖❖❖




Argentinanın "Clarin" milli gündəlik qəzetinin internet portalında "İlham Əliyev İranla sərhədin tam nəzarətinin bərpa edildiyini bildirir" başlıqlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin Silahlı Qüvvələri tərəfindən İranla sərhədin tam nəzarətinin bərpa edildiyini bildirdiyi qeyd edilir.

Argentina nəşri Azərbaycan Prezidentinin "Twitter" səhifəsində yaydığı məlumatdan sitat gətirir: Azərbaycan Ordusu Füzulidə üç kəndi, Cəbrayılda dörd kəndi, habelə Zəngilan rayonunun 13 kəndini və Ağbənd qəsəbəsini azad edib. Ağbənd yaşayış məntəqəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinə tam nəzarət təmin edilib!

❖❖❖



Jurnalist Əli Zülfüqaroğlunun və diaspor üzrə tədqiqatçı ekspert Elnur Eltürkün həmmüəllifliyi ilə Əlcəzair və Misir mətbuatında Ermənistanın Gəncədə törətdiyi terror aktları ilə bağlı yazı dərc olunub. AZƏRTAC xəbər verir ki, "Ermənistan Azərbaycanda mülki əhaliyə raket zərbələri endirir" sərlövhəsi və "Gəncədə törədilən terror aktı uşaqların həyatına son qoydu" yarımbaşlığı ilə dərc olunan məqalədə erməni vandalizmindən söhbət açılır.

Yazıda qeyd olunub: "Bu gün Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsində toqquşmalar davam edir. Ermənistan Azərbaycan torpaqlarının 20 faizindən çoxunu işğal altında saxlamasına baxmayaraq, yenə də Azərbaycana qarşı hücumlara başladı. Ermənistanın otuz ilə yaxın müddətdə işğal altında saxladığı torpaqlardan çəkilməsi üçün Azərbaycanın sülh yolu ilə diplomatik səy göstərdiyi halda, Yerevan daim qeyri-konstruktiv mövqe sərgiləyərək təxribatlarını davam etdirdi və sülh danışıqlarını pozdu. Yenidən Azərbaycan ərazilərinə, xüsusilə də mülki əhalinin yaşadığı və hərbi birləşmələrin olmadığı yerlərə ağır silahlardan atəş açmağa başladı".

Məqalədə Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaltması ilə bağlı BMT-nin qətnamələri, Gəncədə Ermənistan silahlı qüvvələrinin törətdiyi terror aktları, həyatını itirən mülki şəxslər barədə məlumat yer alıb.

❖❖❖




Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların irəliləməsi üçün bir neçə təklif irəli sürərək tərəflərin mövqelərini yaxınlaşdırmağa çalışdılar. Bütün bu təkliflər status-kvonu əbədiləşdirmək və işğal olunmuş əraziləri ilhaq etmək üçün vaxt qazanmaq istəyən Ermənistanın etirazı ilə qarşılandı. Bu, bir daha son 28 ildə beynəlxalq vasitəçilərin sülh prosesində heç bir irəliləyişə nail olmamasının səbəbini göstərir. Təhlükəsizlik Şurasının qərarları qulaqardına vuruldu və erməni işğalı altında olan evlərinə qayıtmağı gözləyən bir milyondan çox məcburi köçkünün gözü hələ də yoldadır. Belə bir vəziyyətdə danışıqların davam etdirilməsi üçün artıq hər hansı məna qalmayıb.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Le Causeur" portalında dərc olunmuş Fazil Zeynalovun "Bakı beynəlxalq hüququn tətbiqini istəyir" sərlövhəli məqaləsində yer alıb.

Məqalədə son hərbi əməliyyatların başlanmasının səbəblərindən də söz açılıb. Ermənistanın indiki rəhbərliyinin Azərbaycanı müharibə ilə hədələməsindən və yeni torpaqlar ələ keçirmək xəyallarından danışılıb.

Ermənistanın baş naziri Nikol Paşinyanın təxribatçı və sərsəm bəyanatları rəsmi Bakını cavab tədbirləri görməyə məcbur edib.

Yazıda, həmçinin cari ilin iyulunda Ermənistan silahlı qüvvələri Azərbaycanın beynəlxalq sərhədlərini pozduğu diqqətə çatdırılıb.

❖❖❖

LE FIGARO

Fransanın "Le Figaro" nəşri hazırda Dağlıq Qarabağda həyata keçirilən hərbi əməliyyatlar barədə növbəti yazı dərc edib.

Məqalədə qeyd olunur ki, Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin heç bir siyasi həllinin olmadığını deyərək insanları könüllü olaraq cəbhəyə yollanmağa çağırıb.

Məqalədə, həmçinin bildirilir ki, Paşinyan şəhər, qəsəbə və kəndlərin yerli rəhbərlərinə, vətəndaş təşkilatları, siyasi partiyaların, işgüzar dairələrin və könüllü birliklərin rəhbərlərinə müraciət edərək onları Azərbaycana qarşı döyüşməyə çağırıb. O, cəbhə xəttindəki vəziyyətin separatçılar üçün kifayət qədər ağır olduğunu da etiraf edib və hər kəsi birləşməyə çağırıb.

Yazıda Azərbaycanın 90-cı illərdə itirdiyi torpaqları geri qaytardığı qeyd olunur.

Sonda bildirilir ki, Paşinyanın bu çıxışı oktyabr ayında razılaşdırılmış iki humanitar atəşkəsin ardıcıl olaraq uğursuzluqla nəticələnməsi zəminində baş tutub.

Yazıda hər iki ölkənin xarici işlər nazirlərinin Moskva və bu gün baş tutmalı olan Vaşinqton görüşlərinə də toxunulub.